Yeni dərs ilinə hazırlıqla əlaqədar Təhsil Nazirliyinin vəsaiti hesabına 7, 12 saylı Bakı, 3 saylı Gəncə Peşə Liseylərinin əsaslı təmiri, 4 və 5 saylı Bakı Peşə Liseylərinin, 13 saylı Qız Peşə Məktəbinin, 50 saylı Ağdam Peşə Məktəbinin təmiri, habelə İsmayıllı Turizm və Otelçilik üzrə Peşə Məktəbinin tikintisi istiqamətində iş aparılır. Təmir ediləcək peşə təhsili müəssisələri müasir avadanlıq və inventarlarla təchiz ediləcək.

Məlumat üçün bildiririk ki, hazırda ölkəmizdə 60 peşə məktəbi, 47 peşə liseyi olmaqla 107 peşə təhsili müəssisəsi vardır. 2008-2009-cu tədris ilində 1 peşə tədris mərkəzi fəaliyyət göstərəcək. Bakıda yerləşən 35 peşə təhsili müəssisəsindən 18-i peşə liseyi, 10-u peşə məktəbidir, 7-si isə cəzaçəkmə müəssisələrində fəaliyyət göstərir. Peşə təhsili müəssisələrində 1062 ümumtəhsil, 989 ixtisas fənn müəllimi, 1655 istehsalat təlimi ustası, 3706 mühəndis-pedaqoji işçi çalışır. Şagirdlərin ümumi sayı isə 24 455-dir.